*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 mart 2018-ci il № 23 (2239) Qiyməti 25 qəpik


## “Açıq qapı” günündə iştirak edən valideynlər hərbi hissələrdə yaradılan şəraitə görə Ali Baş Komandana minnətdarlıqlarını bildiriblər



*Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Novruz bayramı münasibətilə keçirilən "Açıq qapı" günündə Müdafiə Nazirliyinin rəhbər heyəti cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov əsgər valideynləri, müharibə və əmək veteranları, şəhid ailələri və ictimaiyyət nümayəndələri ilə görüşərək Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, orduda həyata keçirilən islahatlar, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə görülən işlər, yeni inşa edilən hərbi şəhərciklər, digər fəaliyyətlər barədə onlara məlumat verib, qonaqları maraqlandıran suallarla bağlı fikirlərini bölüşüb.

Müdafiə naziri ziyarətçilərə və şəxsi heyətə Novruz bayramı münasibətilə Ali Baş Komandanın təbriklərini çatdırıb və onlara uğurlar diləyib.

Sonra əsgər valideynləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə hərbi hissənin ərazisində çörək zavodu, camaşırxana və atış məşqlərinin keçirilməsi üçün "Atəş şəhərciyi"nin açılışı olub.

Müdafiə naziri cəbhəboyu zonada yerləşən hərbi hissələrin silahlanmasına yeni daxil edilən döyüş texnikalarına baxış keçirib, onların texniki vəziyyəti və imkanları ilə maraqlanıb.

Daha sonra Müdafiə naziri hərbi qulluqçular və ziyarətçilərlə birlikdə bayram süfrəsi arxasında nahar edib.

Hərbi hissələrdə keçirilən "Açıq qapı" günündə iştirak edən valideynlər şəxsi heyət üçün yaradılan şəraitdən məmnun qaldıqlarını bildirib, Dövlət başçısına göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

## Bu gün ordumuzun təminatla bağlı heç bir problemi yoxdur

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, son günlər keçirilən "Açıq qapı" günləri və digər bayram tədbirlərində iştirak edən minlərlə vətəndaşlarımız, dövlət, qeyri-hökumət və ictimai təşkilatların nümayəndələri, o cümlədən valideynlər hərbi hissələri ziyarət edərkən burada yaradılan sosial-məişət şəraitindən və təminatdan məmnun qalır, razılıqlarını bildirirlər.*

Azərbaycan Ordusu dövlətimizin və şəxsən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub. Ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi, həmçinin ərzaq, əşya, eləcə də digər təminatının daha da yaxşılaşdırılması üçün böyük işlər görülüb və bu istiqamətdə tədbirlər davam etdirilir.

Bu gün ordumuzun təminatla bağlı heç bir problemi yoxdur. Hərbi hissələrdə olarkən hər kəs bu istiqamətdə əldə etdiyimiz uğurların şahidi olur. Bunu nəzərə alaraq bildiririk ki, hərbi hissələrə ziyarət təşkil edilərkən əsgər normasından artıq və israfçılığa səbəb olacaq təminat vasitələrinin toplanılmasına və gətirilməsinə ehtiyac yoxdur.

Xalqımızın səmimi münasibəti, mənəvi dəstəyi, hərbi vətənpərvərlik tədbirləri şəxsi heyətin döyüş ruhunun, qələbə əzminin daha da möhkəmlənməsinə yetərlidir. Əsgərlərimizə mənəvi dəstək olan hər kəsə dərin minnətdarlığımızı bildiririk.

AZƏRBAYCAN ORDUSU

# General-leytenant Kərim Vəliyev:
## Azərbaycan Ordusunun başladacağı hərbi əməliyyat düşmənin darmadağın olması ilə nəticələnəcək



*Azərbaycan Ordusunun başladacağı hərbi əməliyyat Ermənistan silahlı qüvvələrinin tam darmadağın edilməsi ilə nəticələnəcək və erməni xalqının qaçılmaz faciəsinə çevriləcək.*

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev Ermənistan silahlı qüvvələrinin qərargah rəisi Movses Akopyanın son müsahibəsini şərh edərkən bildirib.

General-leytenant Kərim Vəliyev qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin rəhbərliyi bu cür məsuliyyətsiz bəyanatlar verməklə gələcəyə inamını itirən erməni xalqını aldatmaqda davam edir. Hamıya məlumdur ki, Ermənistan prezidenti Serj Sarkisyan çıxışlarından birində öz bacarıqsızlıqlarına haqq qazandırmaq məqsədilə aprel döyüşlərində keçən əsrin 80-ci illərinin istehsalı olan silah və texnika ilə vuruşduqlarını etiraf etmişdi. Odur ki, bir-iki il ərzində cəmi 2-3 top və bir raket sistemi əldə etməklə yeni silahlanmadan qürrələnərək, guya Azərbaycan Ordusuna ciddi itkilər verməyin mümkünlüyü barədə M.Akopyanın səsləndirdiyi fikirlər də cəfəngiyatdır. Ən güclü iqtisadiyyata və maliyyə imkanlarına malik olan qüdrətli dövlətlər belə qısa zamanda ordunun silahlanmasını tam yeniləməyə qadir deyil. Dilənçi payı və kredit hesabına yaşayan Ermənistan rəhbərliyinin isə bu barədə bəyanatlar səsləndirməsi gülüncdür.

"M.Akopyan müsahibəsində Ermənistan ordusunun döyüş hazırlığı, cəbhə xəttindəki vəziyyət, döyüş əməliyyatlarının başlaması perspektivləri, guya Azərbaycan Ordusunun həmlələrinin qarşısını ala biləcəklərini də dilə gətirir. Bunu isə M.Akopyan həyata keçirmək niyyətində olduqları "ordunun 7 illik modernizasiya proqramı" ilə əlaqələndirir. Pərən-pərən olan cəmiyyətə, dağılan iqtisadiyyata, faciəvi demoqrafik vəziyyətə, mənəviyyatı çökmüş orduya malik olan Ermənistanda belə proqramların həyata keçirilməsindən danışmaq fantastikdir.

Əvvəllər müdafiə haqqında öz xalqına nağıllar danışan Ermənistan hərbi rəhbərliyi "keçilməz Ohanyan xəttindən" bəhs edirdisə, indi də ortalığa atdıqları "Sarkisyan xəttindən" dəm vururlar. Əslində isə aprel döyüşləri göstərdi ki, münaqişənin həlli mümkündür və ordumuzun torpaqlarımızı azad etmək əzminin qarşısı heç bir sədlə alına bilməz.

Sadəcə olaraq, Azərbaycan münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunmasının tərəfdarıdır və bunun mümkünlüyünə inanır. Ancaq məsələ sülh yolu ilə həll edilməzsə, Azərbaycan istənilən güc və vasitə ilə ərazi bütövlüyünün təmin edilməsi hüququndan mütləq istifadə edəcək. O zaman Azərbaycan Ordusunun başladacağı hərbi əməliyyat Ermənistan silahlı qüvvələrinin tam darmadağın olmasına və erməni xalqının qaçılmaz faciəsinə çevriləcək.



## Azərbaycanın Müdafiə naziri Türkiyəyə rəsmi səfər edəcək

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab Nurəddin Caniklinin dəvəti ilə martın 28-də Ankara şəhərinə yola düşəcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, rəsmi səfər çərçivəsində Türkiyənin hərbi-siyasi və digər dövlət strukturlarının rəhbərləri ilə görüşlərin keçirilməsi nəzərdə tutulub.

Martın 31-də isə Azərbaycan Müdafiə nazirinin Türkiyənin Giresun şəhərində keçiriləcək Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşündə iştirakı planlaşdırılır.

# Hazırlıqlı əsgər sabahın qalib döyüşçüsü və layiqli vətəndaşıdır

*Bir dəfə Müdafiə nazirinin kursantlarla görüşündə iştirak edirdim. Nazirin hər sözü, kəlməsi dəyərli tövsiyə olaraq gənclərin yaddaşına yazılırdı. Səmimilik şəraitində keçən görüşün bir məqamında nazir vurğuladı ki, sabahın zabiti, komandiri olacaq kursant bilməlidir ki, tabeliyindəki əsgərlərin təlim-tərbiyəsinə tam məsuliyyət daşıyır. "Bu günün əsgərini sabahın bacarıqlı, qalib döyüşçüsü, həm də cəmiyyətin fəal vətəndaşı kimi formalaşdırmaq komandirlərin əsas vəzifəsidir".*



Gənclərimiz hərbi xidmətdə Vətəni qorumağın sirlərinə yiyələnməklə yanaşı, gələcəkdə müstəqil həyatda yaşamağın vacib vərdişlərinə alışırlar. Bu, olduqca əhəmiyyətli məsələdir və buna görə də hərbi xidmət dövrü hər bir gəncin həyatında mühüm mərhələdir.

Bəzən müsahibə aldığım əsgərlərdən ordu sıralarında keçirdikləri günlərin dəyərini soruşuram, onların hərbi xidmətlə bağlı təəssüratlarını öyrənirəm. Növbəti dəfə cəbhə bölgəsində olanda da belə əsgərlərimizin bir qrupu ilə görüşdüm. Gəlin, onların fikirləri, ürək sözləriylə birgə tanış olaq.

Əsgər Samit Abuzadə Yardımlı rayonundan orduya çağırıldığını bildirib artıq hərbi xidməti başa vurmasına az müddət qaldığını deyir:

- Azərbaycan gəncliyinin bir nümayəndəsi olaraq Vətənimizə xidmət etməkdən mən də qürurluyam. Ordu həyatında olmağımız bizə imkan verdi ki, Vətəni necə qorumağı, onu düşmənlərdən müdafiə etməyi öyrənək. Yəni, demək istəyirəm ki, Azərbaycan Ordusu bizi müsəlləh əsgər kimi formalaşdırdı. Bu, çox vacib, önəmli amildir, hər birimiz Vətənin övladıyıqsa, onu qorumağa hazır olmalıyıq. Bu məqsədlə silahların, hərbi texnikaların sirlərini öyrəndik, döyüş növbətçiliyi bizə məğrurluğu, cəsarəti və digər mənəvi keyfiyyətləri aşıladı, hansı ki, bunlar döyüşçü üçün ən vacib xüsusiyyətlərdir.

- Mən isə xidmətə Lerik rayonundan gəlmişəm, - deyə əsgər Taleh Abbasov söhbətimizə qoşulur. - Qumbaraatan köməkçisi vəzifəsində xidmət edirəm. Vətən hamımızındır, ikinci anamızdır, onu son nəfəsədək qorumaq borcumuzdur. Bu məqsədlə bizdən hərbi mühitin tələb etdiyi vərdişlərə malik olmaq tələb olunur.

- Taleh, sən də bu yaxınlarda ordu həyatı ilə vidalaşacaqsan, hərbi xidmətdən hansı təəssüratla dönəcəksən?

- Əsgər yoldaşım qeyd etdi ki, hərbi xidmət bizə Vətəni necə qorumağı öyrətdi. Tamamilə doğrudur, onun dediklərinə əlavə olaraq qeyd etmək lazımdır ki, səngər həyatı həm də bizə səmimi, sarsılmaz dostlar qazandırdı. Doğrudan da, dar günün dostluğu möhkəm olur. Birinci olaraq komandirimiz baş leytenant Allahşükür Şahbazovu özümə ən yaxın silahdaş hesab edirəm. Çünki o çətin günlərimizdə bizə dayaq olub və hamımıza qayğı, tələbkarlıq göstərib. Əgər Ali Baş Komandanımız döyüş əmri verərsə, mən də komandirimlə çiyin-çiyinə savaşa atılmağa hazıram.

Talehin komandiri haqqında səmimi fikirləri məni neçə il əvvələ, dağlıq şəraitdə şahidi olduğum bir hadisəyə qaytardı. Düşmənlə ara məsafəsi yaxın olan mövqelər idi, hərbi hissənin komandiri ilə posta gedirdik. Bu zaman bir əsgərin onun böyründə eyni addımlaması diqqətimi çəkdi. Komandirdən səbəbini soruşanda dedi ki, özün əsgərdən bu sirri öyrənərsən. Nəhayət, döyüş növbətçiliyinə baş çəkib qayıdandan sonra əsgərlə söhbətləşməyə imkan tapdım. Əsgər dedi ki, mən düşmən səmtində hərəkət edirəm ki, qəflətən atəşkəs pozularsa, qoy düşmən gülləsi komandirimə yox, mənə dəysin. Fikir verin, Azərbaycan əsgəri nə boyda ürək sahibidir, öz komandiri üçün can əsirgəməyən əsgər Vətənimizə də daim sədaqətli olacaq, xalqımızı, millətimizi göz bəbəyi kimi qoruyacaq.

Qusar rayonundan olan əsgər Nail Beybutov da hərbi xidmətdə son günlərini keçirir. Deyir ki, bu gün-sabah ordu həyatı ilə vidalaşıb doğmalarının yanına qayıdacaq.

- Nail, avtobusa əyləşib rayona yola düşəndə bəlkə bir ağsaqqal səndən soruşacaq ki, oğlum, əsgəri xidmətdən hansı xatirələrin qalacaq, onda nə deyəcəksən?

- Aylarla bir şəraitdə xidmət etdiyim, çətin günlərimizdə ürək sözlərimi bölüşdüyüm komandirimdən, dəyərli əsgər yoldaşlarımdan söhbət açacağam. Hərbi xidmətlə bağlı təəssüratım zəngindir, ordu mərdlik, qəhrəmanlıq məktəbidir, onun sıralarında xidmət etməklə əsl vətəndaş və qalib döyüşçü kimi formalaşırıq.

Sonra söhbətimizə qoşulan əsgərlərdən Ayaz Qarayev, Fərhad Baxşəliyev, Elvin Cəfərzadə və başqaları da hərbi xidmət dövrünün onların həyatında mühüm mərhələ olduğunu bildirərək ordu mühitində həm döyüş vərdişlərinə, həm də zəruri mənəvi xüsusiyyətlərə alışdıqlarını qeyd etdilər.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

*Ön xətdən reportaj*

# “Vətənin keşiyində duran əsgər kimi qürurluyam!”



...Azərbaycanlıyam. Necə də qürurlu səslənir bu söz. Bu hissi yaşayan hər kəs xoşbəxtdir. Xoşbəxtdir ki, doğma yurdu, müstəqil dövləti var. Bizə oğul deyən Vətənimiz, uğrunda canımızı sevə-sevə qurban verəcəyimiz müqəddəs torpaqlarımız var. Daim fəxr ediləcək keçmişimiz, çiçəklənən bu günümüz, parlaq gələcəyimiz var. Vətənimiz də xoşbəxtdir ki, ona ürəkdən bağlı xalqı var. Onu yağılardan qoruyan güclü ordusu var. Tabor komandiri Əlyar Əliyev, Xocalının müdafiəçisi Əlif Hacıyev, Tərtər rayonunu son nəfəsinə kimi müdafiə edən Vəzir Orucov kimi, ... qəhrəmanları olub. Əsgərlərimiz bu qəhrəmanları özünə örnək bilir.

Müstəqilliyi qoruyub saxlamaq üçün güclü ordu ən vacib şərtlərdəndir. Güclü ordusu olmayan dövlətin müstəqilliyi daim düşmənlərin, yadellilərin təhlükəsi altındadır. Müasir dövrdə Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Ordumuz zəngin maddi-texniki bazaya, ən yeni silahlara malikdir. Lakin ordunu yenilməz edən təkcə silah və texnikanın gücü deyil. Ən yeni raketlərin, güclü silahların, topların, döyüş maşınların ola bilər. Lakin sənin qorxmaz, mərd, cəsur əsgərlərin yoxdursa, məğlub olarsan. "Öncə Vətəndir!" deyən oğullardır bizi yenilməz edən. Azərbaycan əsgərinin ən güclü silahı vətənpərvərliyi, Vətən sevgisidi!... Şah İsmayıl Xətainin bir deyimini xatırlayıram: "Qılınc həmin qılıncdır, qol o qol deyil". Bəli, silah-texnika düşməndə də var, lakin əsgər həmin əsgər, ürək həmin ürək deyil. Onların əsgərləri silahını döyüş meydanında qoyub qaçır, bizim əsgərlər isə son damla qanına qədər döyüşü davam etdirir...



## Torpaqlarımız qətiyyətlə qorunur

Ordumuzun hər bölməsində vətənpərvər, cəsur və mərd oğulların xidmət etdiyinin daim şahidi oluruq. Bu gün də "N" hərbi hissəsinin düşmənlə təmas xəttində yerləşən bölməsində vətənpərvər əsgərləri tanımağın sevincini yaşayıram. Torpaqlarımıza keşik çəkən bu oğulların qətiyyəti, məğrurluğu sübut edir ki, torpaqlarımız inamla qorunur. Düşmən hər an nəzarətdə saxlanılır. Bu igidlərin baxışlarında Böyük Qələbənin işartısı görünür. Onların hər kəlməsində Vətən var, Qələbə var.

Baş leytenant Bəhruz Qocayev döyüş növbətçiliyini dəyişməyə hazırlaşan əsgərlərə təlimat keçir. Əlini sıxıb salamlaşdığım hər əsgər özünü təqdim etdikdən sonra eyni cümləni təkrar edir: "Vətənin keşiyində duran əsgər kimi qürurluyam!". Bu sözlər qəlbimi riqqətə gətirir, ruhumu qidalandırır.

Qeyri-ixtiyari səmaya, ətrafa, daş-kəsəyə, ağaca, torpağa, uçan quşlara baxıram. Hamısı Vətənimizin zərrəsidir. Bunları Vətən edən belə oğullardır. Bu sıralarda Mübarizlərin, Fəridlərin, Raqufların, Samidlərin, Çingizlərin... ruhunun dayanmasına əmin oluram...

Baş leytenant B.Qocayev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Zabit peşəsini öz arzu və istəyi ilə seçib. Seçdiyi peşəyə ürəkdən bağlanıb, bu yolu özünün həyat yolu bilib. Bacarıqlı zabit mövqelərə, təhlükəli istiqamətlərə yaxşı bələddir.

- Peşə seçimi hər kəsin həyatında mühüm hadisələrdən biridir, - deyir. - Bu yolu öz istəyimlə seçmişəm. "Gələcəkdə nə olacaqsan?" sualına düşünmədən "hərbçi olacam!" cavabını verirdim. Bu peşənin sirlərinə dərindən yiyələnmişəm. Mövqelərimizi inamla qoruyuruq. Atəşkəsi tez-tez pozan düşməni layiqincə susdururuq. Əsgərlərin hər biri uğurla xidmət edir, verilən tapşırıqları vaxtında yerinə yetirir. Məişət şəraitimiz də yüksəkdir. Üzərimizə bircə vəzifə düşür, xidməti düzgün təşkil edib, Vətənimizi qorumaq. Biz burada düşmən qarşısında dağ kimi dayanmışıq. Xalqımız firavan yaşasın, uşaqlarımız məktəbə rahat gedib-gəlsin, nənələrimiz nəvələrini gəzməyə könül rahatlığı ilə aparsın, evlərimizdən toy-bayram səsləri eşidilsin deyə, düşmənə sinəmizi sipər etmişik.

## Əsgər olmaq, hərbi xidmət keçmək şərəfdir

...Əsgərik. Zabitin bu sözü məni duyğulandırır. Aprel döyüşlərinin qazisi, Vətəninin cəsur, mərd, igid oğullarından olan Kamil Musavinin televiziya kanallarına verdiyi müsahibələrin birində dediyi "Sizlər üçün əsgər, əsgərlərim üçün komandirəm" sözlərini xatırlayıram. Bəli, bu gün hamımız əsgərik. Bizim üçün darıxan ata-baba yurdumuz var. Müqəddəs torpaqlarımız adət-ənənələrimiz üçün darıxıb. Novruz tonqallarına, Qurban bayramlarına, iftar süfrələrinə, üçrəngli bayrağın kölgəsinə, saza, sözə, şeirə həsrət qalıb. Bu həsrəti biz dindirməliyik, dindirəcəyik də!..

Ordu sıralarından ehtiyata buraxılmağa hazırlaşan əsgər Nazim Cabbarov hərbi xidmətə Bakı şəhərindən çağırılıb. Gənc əsgər hazırlığını uğurla başa vurduqdan sonra bu bölmədə xidmətini davam etdirir.

- Əsgəri xidmət keçmək hər bir gəncin şərəf borcudur, - Nazim deyir. - Hərbi xidmətdə bir çox üstün keyfiyyətlərə yiyələnmişəm. Dözümlülük, möhkəmlik, mərdlik kimi əsl kişiyə xas xüsusiyyətlər qazanmışam. Həmçinin silahlardan istifadə etməyi, döyüş taktikasını öyrənmişəm. Ömürlük davam edəcək dostluqlar qurmuşam. Bir gənc kimi sevincliyəm ki, Vətən qarşısında borcumu layiqincə yerinə yetirib, ailəmin yanına başıuca qayıdacam.

...Əsgərlə söhbətim zamanı bir daha əmin oluram ki, müasir gənclərimiz hərbi xidmət keçməyin vacibliyini dərk edirlər. Vətən qarşısında borcun öhdəsindən uğurla gəlirlər. Döyüş tapşırıqlarına məsuliyyətlə yanaşır, nümunəvi xidmət etməyə çalışırlar.

- Ali Baş Komandanın döyüş əmrinə hər an hazırıq, - əsgər Füzuli Bayramov deyir. - Hərbi xidmətə Gəncə şəhərindən çağırılmışam və səngərdə xidmət etməyi ən şərəfli vəzifə hesab edirəm. Çağırış vərəqəsi gələndə çox qürurlandım. Gənc əsgər olarkən keçirilən təlimlərə həvəslə yanaşdım. Silahımın sirlərini, ondan sərrast nişan almağı bacarıqla öyrəndim. Düzü, hərbi bilikləri yaxşı öyrənməyə daim can atıram, lakin komandirlərimin də zəhmətini vurğulamaq istəyirəm. Bacarıqlı əsgərlər kimi formalaşmağımızda böyük əziyyətləri olub. Hər birinə təşəkkürümü bildirirəm. Həm tələbkar komandir olublar, həm də qayğılarımızla həmişə maraqlanıblar. Bir gənc kimi fəxr edirəm ki, azərbaycanlıyam, Azərbaycan Ordusunun əsgəriyəm.

Xalq da sizinlə fəxr edir. Körpədən tutmuş, ahıl yaşına çatmış hər kəs sizə xüsusi rəğbət bəsləyir. Siz ən yüksək sayğıya layiqsiniz. Düşmən qarşısında dayanırsınız. Torpaqlarımızı qoruyursunuz. Və hər kəs inanır ki, tez bir zamanda yağıları doğma torpaqlarımızdan qovacaq, bizə zəfər bayramı yaşadacaqsınız...



Bu inamı əsgər Yusif Hüseynov da təsdiqləyir. Əsgəri xidmətə Şabran rayonundan çağırılan gənc torpaqlarımızı işğaldan azad etməyə hər an hazır olduğunu bildirir. "Biz aprel döyüşlərindəki qələbəmizi hər an təkrarlamağa hazırıq. Ali Baş Komandanımızın döyüş əmri ilə onları torpaqlarımızdan qovacağıq. Əsgər olmaqdan mən də qürurluyam. Buradan həmyaşıdlarıma deyirəm ki, əsgəri xidmət bizim övladlıq borcumuzdur. Vətənə ana deyirik, onu anamız qədər əziz bilirik. Torpaqlarımızın bir hissəsinin işğalda olduğu bir vaxtda Vətən bizdən cəsurluq, igidlik gözləyir.”

## Yüksək təminat, diqqət və qayğı ruh yüksəkliyi yaradır

Əsgərin sözləri, məğrurluğu, qürurlu baxışları xoş təəssürat yaradır. Bölmədə döyüş ruhu, mənəvi-psixoloji hazırlıq ilk baxışdan hiss olunur. Bölmənin şəraiti ilə tanış olduqda görürük ki, əsgərlərin uğurlu xidməti üçün hər cür şərait var. Həm səngərləri, sığınacaqları möhkəmdir, həm də məişət şəraitləri qaydasındadır. Düşmənlə təmas xəttində belə nümunəvi şəraitin olması, komandanlıq tərəfindən hər bir əsgərə yüksək diqqət və qayğı göstərildiyinin bariz nümunəsidir. Bunu əsgər Elvin Kərimov də vurğulayır:

- Əsgəri xidmətə gələn gündən komandirlərimdən doğma münasibət görmüşəm. Burada ailə mühitində xidmət edirik. Şəraitimiz də yüksəkdir. İsti yataq yerimiz, yun və qalın qış geyimlərimiz var. Keyfiyyətli yeməklərlə qidalanırıq. Asudə vaxtlarımız da səmərəli keçir, qəzet və jurnallar oxuyur, televizora baxır, idmanla məşğul oluruq. Vəzifəmizin öhdəsindən tam məsuliyyətlə gəlirik.

Son illər ordu quruculuğunda aparılan uğurlu islahatların nəticəsində bütün bölmələrdə yüksək təminat yaradılıb. Belə şərait hər bir zabitə, əsgərə xoş ovqat, döyüş ruhu aşılayır. Övladını əsgəri xidmətə yola salan ana ondan nigaran qalmır. Bilir ki, övladı əmin əllərdədi, qidalanması, geyimi, yataq şəraiti qaydasındadı. Söhbətləşdiyim daha bir əsgər Sabir Əliyev yaradılan şəraitdən valideynlərinin də razı olduğunu bildirir. O deyir ki, "Açıq qapı" günü tədbirlərinin birində onun da yaxınları iştirak edib. “Valideynlərim görüşümə gəlmişdi. Bölməmizin şəraiti ilə tanış oldular. "Oğul, layiqli xidmət etməyiniz üçün hər cür şəraitiniz var. Komandirlərinin sözündən çıxma, ordumuza layiqli xidmət et", - atam dedi. Hamı kimi mən də xidmətimi nöqsansız yerinə yetirmək üçün var qüvvəmlə çalışıram. Növbədə diqqətli olur, təhlükəli istiqamətlərə ciddi nəzarət edirəm. Bilirəm ki, bir anlıq diqqətsizliyim hamımızın həyatını təhlükəyə atar, düşmənə irəliləmək üçün şərait yaradar. Ona görə də barmağım tətikdə, gözüm nişangahda ayıq-sayıq dayanıram.”

Bu gün söhbətləşdiyim igidlərin timsalında hiss edirəm ki, əsgərlərimiz mərd, cəsur, qorxmazdırlar. Vətənimizə, millətimizə sadiq oğullardır. İstənilən şəraitdə torpaqlarımızın keşiyində inamla dayanıblar. Belə əsgərlərin qarşısında isə heç bir düşmən tab gətirə bilməz!

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# Hərbi hissələrdə "Açıq qapı" günü



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, Novruz bayramı münasibətilə Müdafiə Nazirliyinin tabeliyində olan bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirilib. Ziyarətçilər hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış olub, xidməti, inzibati binalara, əsgər yataqxanalarına və yeməkxanalara baş çəkiblər. Hərbi hissələrdə komandanlığın iştirakı ilə keçirilən "Açıq qapı" günündə valideynlərlə görüşlər təşkil olunub, onları maraqlandıran bütün məsələlərin müzakirəsi aparılıb, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçirilib.*

Milli-mənəvi dəyərlərimizin ən gözəl nümunələrindən olan, dostluq və həmrəylik rəmzi kimi qəbul edilən Novruz bayramı xalqımızın çox sevdiyi və həmişə təntənə ilə qeyd etdiyi bayramlardan biridir.

Novruz bayramı günündə "N" hərbi hissəsində "Açıq qapı" günü tədbiri keçirildi. Ölkənin müxtəlif şəhər və rayonlarından öz övladları ilə görüşə gəlmiş valideynlərin üzündə sevinc əhvalı və bayram ab-havası duyulur…

Əvvəlcə hərbi hissənin ərazisində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilir, abidənin önünə gül-çiçək dəstələri qoyulur.

General-leytenant Rövşən Əkbərov valideynləri Novruz bayramı münasibətilə təbrik edərək, keçirilən "Açıq qapı" gününün əhəmiyyətini vurğulayır. General qeyd edir ki, bugünkü gündə valideynlər əsgərlərin məişət şəraiti ilə yaxından tanış olaraq, onları maraqlandıran suallara cavab ala biləcəklər.

Valideynlər də yaradılan şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Mingəçevir şəhərindən olan əsgər valideyni Cabbar Ağakişiyev yaradılan şəraitə və təşkil olunan geniş bayram konsertinə görə dərin minnətdarlığını ifadə edir.

…Hərbi hissənin şəxsi heyəti sıra meydanında düzüldükdən sonra ilk olaraq general-leytenant Rövşən Əkbərov şəxsi heyəti salamlayır və Novruz bayramı münasibətilə təbriklərini çatdırır.

Polkovnik Qurban Qurbanov da öz növbəsində şəxsi heyəti Novruz bayramı münasibətilə təbrik edir.

Daha sonra Sumqayıt şəhər İcra Hakimiyyətinin nümayəndəsi Həzi Əkbərov şəxsi heyəti salamladı və bayram təbriklərini söylədi.

Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının sədr müavini Vəzirxan Ənsərov şəxsi heyətə bayram təbrikini ünvanladı və öz tövsiyələrini bölüşdü: "Əziz əsgərlər! Sizə Konstitusiya borcumuz olan müqəddəs bir vəzifə tapşırılıb - Vətənimizin müstəqilliyini və suverenliyini qorumaq! Bu şərəfli bir işdir. Hər birinizə bu yolda uğurlar arzulayıram. İnanırıq ki, yaxın zamanlarda torpaqlarımız işğaldan azad olunacaq və belə əziz günləri sizlərlə birlikdə orada qeyd edəcəyik."

Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Sumqayıt filialının sədri Tərlan Hacızadə "Azərkimya" İstehsalat Birliyinin nümayəndəsi Vaqif Ömərov və başqaları çıxış edərək şəxsi heyətə bayram təbriklərini bildirdilər.

Əsgər yeməkxanasında hərbi hissənin özfəaliyyət kollektivinin iştirakı ilə geniş bayram konserti təşkil olundu.

Gənc xanəndə Gülzar Fərəcovanın ifaları bayram konsertinə xüsusi rəng qatdı.

* * *

"N" hərbi hissəsində bayram ovqatı hiss olunurdu. Tədbiri giriş sözü ilə açan polkovnik Qədir Nəsibov şəxsi heyəti Novruz bayramı münasibətilə təbrik edərək hər kəsə xidmətlərində uğurlar arzuladı.

Azərbaycan Televiziyası kollektivinin yüksək zövqlə hazırladığı ədəbi-bədii kompozisiya hərbçiləri sevindirdi.

"Açıq qapı" tədbirində valideynlər fikirlərini bölüşdülər.

Sabirabad rayonundan gələn əsgər atası Ramiz İbadov bildirdi ki, istər məişət şəraiti, istərsə də qida təminatı yüksək səviyyədədi: "Bu gün düşüncələrimin əyani sübutu ilə qarşılaşdım. Etiraf edim ki, könlümdən yenidən əsgər olmaq sevdası keçdi. Yaradılan bu şərait cənab Prezidentimizin orduya olan diqqətinin təcəssümüdür. Mən əminəm ki, qısa müddətdə ordumuz şanlı səhifələr yazacaq".



Gəncə şəhərindən gəlmiş əsgər anası Fatimə Əhmədli də təəssüratlarını bölüşdü: "Bir ana üçün ən böyük zinət nədir? Təbii ki, övladı. Bu gün xoşbəxtəm ki, əsgər anasıyam. Övladımın Vətənin keşiyində dayanması mənim üçün qürurdur. Mübaliğəyə varmadan deyə bilərəm ki, yaradılan bu şərait məni bir valideyn kimi tam razı saldı. Azərbaycan Ordusuna göstərdiyi yüksək diqqət və qayğıya, hərbçilərimiz üçün yaradılan şəraitə görə cənab Ali Baş Komandana minnətdarlığımı bildirirəm".

Əsgər Fayaz İmamverdiyevin nənəsi, Astara rayonundan gəlmiş Səyyarə Qasımova da deyilənləri təkrar edir: "Hərbi hissədə hər cür şərait yaradılıb. Nəvəm etibarlı əllərdə, daim diqqət və qayğı əhatəsindədir. Əsgər balalarımıza yaratdığı bu şəraitə görə Cənab Prezidentimizə təşəkkürümü bildirirəm".

* * *

"Açıq qapı" günü "N" hərbi hissəsində də təntənəli surətdə keçirildi. Novruz bayramına xas olan atributlarla bəzədilən ərazidə tonqal qalandı, bayram konserti təşkil olundu. Xalqımızın qədim adət-ənənələrini, milli dəyərlərini özündə yaşadan Bahar bayramı günündə respublikamızın müxtəlif guşələrindən gəlmiş əsgər valideynləri və yaxınları, yerli icra orqanlarının nümayəndələri, müharibə veteranları, rayon ictimaiyyəti və təhsil ocaqlarının təmsilçiləri tədbirdə iştirak etdilər.

Polkovnik Elşən Qapaqov bayram münasibəti ilə şəxsi heyəti və tədbir iştirakçılarını təbrik etdi, onlara möhkəm cansağlığı, uzun ömür, ailə səadəti arzuladı. "Əziz valideynlər və tədbir iştirakçıları. Müdafiə nazirinin tapşırığına əsasən, hərbi hissələrimizdə "Açıq qapı" gününün keçirilməsi ordumuzda artıq dəyərli bir ənənəyə çevrilib. Bu gün əsgərlər üçün yaradılan şəraitlə yaxından tanış olacaqsınız. Belə yüksək məişət şəraiti Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan əsgərinə olan diqqət və qayğısının bariz nümunəsidir", - deyə zabit vurğuladı.

Polkovnik Ruslan Ağasiyev isə Müdafiə nazirinin Novruz bayramı münasibətilə təbrik və salamlarını tədbir iştirakçılarının diqqətinə çatdıraraq dedi:

- Bayram münasibəti ilə hər birinizi ürəkdən təbrik edir, həm şərəfli xidmətinizdə, həm də şəxsi



işlərinizdə uğurlar arzulayıram. "Açıq qapı" günlərinin keçirilməsi xalqla ordunun sıx əlaqəsini təmin edir. Bu da şəxsi heyətə ruh yüksəkliyi aşılayır. Əminliklə deyə bilərik ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə günü-gündən qüdrətini artıran ordumuz torpaqlarımızı tezliklə işğaldan azad edəcək və bu tədbirlərimizi ata-baba torpaqlarımızda keçirəcək, üçrəngli bayrağımızın kölgəsi altında yallı gedəcəyik.

Övladları üçün yaradılmış şəraitlə tanış olan valideynlər və əsgər yaxınları nümayiş etdirilən hərbi texnika və silahlara da böyük maraq göstərdilər. Onlar peşəkar zabitlərimiz tərəfindən kifayət qədər məlumatlandırıldılar.

Sonra valideynlər övladları ilə birgə bayram tonqalı ətrafında şənləndilər.

Tədbirin sonunda yeməkxanaya dəvət olunan qonaqlar əsgərlərlə birgə nahar etdilər. Bacarıqlı aşpazlar tərəfindən hazırlanan yeməklərin keyfiyyətindən və dadından razılıq üzlərdəki təbəssümdən hiss olunurdu. Valideynlər övladları üçün yaradılmış şəraitdən razı olduqlarını vurğulayaraq, Ali Baş Komandana və Müdafiə nazirinə təşəkkürlərini bildirdilər.

Əsgər atası Vəzir Həşimov "Açıq qapı" günündə iştirak etmək üçün Bakı şəhərindən gəlib. "Oğlumun əsgəri formada şanlı ordumuzun sıralarında dayandığını görməkdən qürurlanıram", - valideyn dedi.

Hərbi xidmətə Şamaxı rayonundan çağırılan əsgər Yaqub Məmmədovun atası Əlfağa, əmisi Elçin də onunla görüşə gəliblər. Onlar da hərbi hissədə yaradılan şəraitdən razılıqlarını bildirərək, övladlarının əmin əllərdə olduğunu dedilər.

* * *

"N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsində də qələbəlikdir. Respublikamızın müxtəlif guşələrindən gəlmiş əsgər valideynləri, ictimaiyyət nümayəndələri, məktəblilər, veteranlar, Novruz bayramı ilə birgə keçirilən "Açıq qapı" günündə iştirak etmək üçün gələnlər hərbi hissədə böyük səmimiyyətlə qarşılandılar.

Polkovnik-leytenant Rasim Manafov tədbir iştirakçılarını səmimi salamlayaraq qeyd etdi ki, hərbi hissənin şəxsi heyəti şərəfli döyüş yolu keçib, Naxçıvan, Ağdam, Tərtər, Ağdərə bölgələrində döyüş əməliyyatlarında fəal iştirak edib, ölkəmizin müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə dəyərli töhfə veriblər.

Zabit bildirdi ki, genişmiqyaslı mədəni-kütləvi tədbirlər xalqla ordunun yenilməz birliyinin təzahürünə çevrilir. "Açıq qapı" günlərində də əsgər valideynləri, ictimaiyyət nümayəndələri ordu həyatı ilə daha yaxından tanış olurlar və onlarda ordu haqqında geniş təsəvvür yaranır. Vətənə, xalqa nümunəvi xidmət etmək üçün hərtərəfli yüksək şərait yaradılıb. Bizə göstərilən etimadı doğrultmaq üçün həmişə döyüş və mənəvi-psixoloji hazırlıq səviyyəmizi yüksəltməklə Vətən torpaqlarının işğaldan azad olunmasına nail olacağıq.

General-mayor Xəqani Cəbrayılov tədbir iştirakçılarını Novruz bayramı münasibəti ilə təbrik etdi. "İnanırıq ki, tezliklə Ali Baş Komandanın rəhbərliyi altında ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq, Vətənimizin hər bir guşəsində qürur mənbəyimiz olan üçrəngli bayrağımız dalğalanacaq."

İctimaiyyət nümayəndələri, əsgər valideynləri əsgər yataqxanasına, istirahət, yataq otaqlarına baş çəkdilər. Onlar yüksək şəraitə və ordu quruculuğuna göstərilən diqqət və qayğıya görə Respublikamızın Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Gəncə şəhərindən gəlmiş incəsənət ustalarının konsert proqramı hamıda xoş əhval-ruhiyyə yaratdı.

**(Ardı 5-ci səhifədə)**

# Hərbi hissələrdə "Açıq qapı" günü

(Əvvəli 4-cü səhifədə

*Xalqın orduya güvənci, ordunun xalqa inamı ordu quruculuğu prosesində olduqca əhəmiyyətlidir. 2016-cı ilin aprel döyüşləri ordu - ictimaiyyət münasibətinin nəyə qadir olduğunu təsdiqlədi. Bu münasibət həm miqyas, həm də məzmun etibarilə genişlənməkdədir. Ordu quruculuğunda belə qeyri-rəsmi iştirak mənəvi borc ödəmədi - vətənpərvərlikdi. Bu baxımdan ordu quruculuğunda Bakı şəhəri Səbail rayon İcra Hakimiyyəti də iştirak edir.*



Min illərdi yazın gəlişiylə dağlarda qarın əriməsi, dağ çaylarının suyunun bollaşması, ağacların tumurcuqlaması, çiçəklərin qönçələşməsi göz doydurur, könülləri coşdurur. Bu il də təbiətin oyanışıyla hər yan dəyişib, dəyişir. Təkcə xalqın istəyi, niyyəti, murazı dəyişməyib. Həmin istəkdi, həmin niyyətdi, həmin murazdı - torpaqlarımız işğaldan azad edilsin!..



Ötən il Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən bir kütləvi vətənpərvərlik bayramını xatırlayıram: Qarabağa yaz gələcək! Qarabağa yaz könlümüzün, ruhumuzun bayramı kimi gələcək! "Bu yaz bir başqa yazdı!" - deyəcəyik. "Qarabağın yazı gəldi!" - deyəcəyik. Ön xətdə "N" hərbi hissəsində keçirilən tədbirin mahiyyəti həmin tədbirin eynidi - həmin istəkdi, həmin niyyətdi, həmin murazdı: torpaqlarımız işğaldan azad edilsin! Səbail rayon İcra Hakimiyyəti başçısının müavini Xalidə Bayramovanın rəhbərliyiylə bir qrup əməkdaş bayram ovqatıyla, bayram sovqatıyla əsgərlərin görüşünə gəlib. Bu, bayramlaşmadı; min illərdi bayramlaşmaq üçün əzizlərimizin könlünü ziyarət edirik. Yunus Əmrə könül ziyarətinin fəzilətini bəşərin bəşərilik borcu bilirdi...

Təbiətdə də yazdı, könüllərdə də. Ön xətdə Novruz tonqalını muraz tonqalı bilirəm. Azərbaycan əsgərinin işğaldan azad edəcəyi torpaqlarda tonqalları Muraz tonqalının közü yandıracaq. O ocaqlar daha gur yanacaq...

Əsgərlərin könlündən keçənləri duymaq çətin deyil. Qonaqların səmimi təbriklərini əzizlərinin təbriki bilir əsgərlər. Xalq şairi Zəlimxan Yaqub demişkən, əl əli isidib. Qonaqlar əsgərləri qürurla süzür. Bu, ehtiramdı, sevgidi. Baxışlarda bu sevgiyə sevgi görürəm. Qənirsiz sevgidi, doğma sevgidi...

Mənə belə gəlir ki, qonaqların əsgərlərimizdən üzülməyən baxışlarında xalq şairi Səməd Vurğunun

> Gözüm gözünüzdən
> uzaq olsa da,
> Könüldən könülə
> yollar görünür, -

misraları oxunur. "Sizin hər biriniz hər birimizin əzizisiniz. Siz aprel zəfərini qazanan ordunun əsgərlərisiniz. Ali Baş Komandanın sərkərdəliyiylə daha böyük qələbə qazanacaqsınız, torpaqlarımızı işğaldan azad edəcəksiniz. Sizi belə qürurlu, qətiyyətli görmək bizə gözəl bayram payıdı. Novruz bayramını bu ovqatla qarşıladığımıza görə hər birinizə Səbail rayon İcra Hakimiyyəti adından minnətdarlığımızı bildiririk", - deyir baxışlar...

Polkovnik-leytenant Babək Səmidli hərbi hissədə xidmət edən əsgərlərin də yüksək döyüş hazırlığından, Ali Baş Komandanın hər əmrinə hazır olmalarından danışaraq qürurla deyir ki, əsgərlərimiz istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Polkovnik-leytenant bu hərbi hissənin şəxsi heyətinə belə xoş ovqat yaşatdıqlarına görə Səbail rayon İcra Hakimiyyətinin rəhbərliyinə minnətdarlığını bildirir.

Ordumuz güclüdür, qüdrətlidir. İstər silah-sursatla təchizatı, istərsə də məişəti yüksək səviyyədədir. Ordunun ictimaiyyətdən gözlədiyi, ancaq mənəvi dəstəkdir. Ali Baş Komandanın, Müdafiə nazirinin əmr və göstərişlərini böyük məsuliyyətlə yerinə yetirən əsgərlərimizə belə mənəvi dəstək onların mənəvi-psixoloji hazırlığının yüksəlməsində əhəmiyyətli rol oynayır. Səbail rayon İcra Hakimiyyətinin nümayəndələrinin hərbi hissəmizə bu gəlişinin əsgərlərimizin qələbə əzmini yüksəltdiyinə əminəm. Ona da əminəm ki, gələn Novruz bayramında səbailli dostlarımız əsgərlərimizlə Cıdır düzündə bayramlaşacaq - zabitin inamını məmləkətimizin inamı bilirəm. Əlim ahəstəcə sağımda dayanıb baxışları əsgərlərimizdən üzülməyən 13-14 yaşlı uşağın çiyninə enir. Gülümsünür. İnam, güvənc rəngli bu təbəssümü düşüncələrimə nərgiz-bənövşə ətri bilirəm. Gələn il işğaldan azad edəcəyimiz ərazilərdə dərəcəyimiz, dərib də qalib əsgərlərimizin qədəmlərinə sərəcəyimiz nərgiz-bənövşənin ətri...

Qonaqlarla söhbətləşirik. Son beş-altı ildə Silahlı Qüvvələrimizdə həyata keçirilən irimiqyaslı islahatlardan, ordumuzun döyüş qabiliyyətindən, döyüş və mənəvi-psixoloji hazırlığından, aprel döyüşlərindən, bu döyüşlərin qəhrəmanlarından, şəhidlərimizdən, ... danışırıq. Hamısı bu gəlişə göstərdiyi köməyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirir...

Qonaqların gətirdiyi bayram hədiyyələri səliqəylə qablaşdırılıb. Hansı sevgilərlə qablaşdırıldığını təxmin edirəm. Qardaşa göndərilib Novruz payı. Hədiyyələrin üzərində yazılmış yazılar diqqətimi çəkir: hədiyyələr rayonun ərazisindəki məktəblərdən, uşaq bağçalarından göndərilib. Hamısında məktəbin, bağçanın nömrəsi. Bağlamalardan birinin üzərində yazılanlar ürəyimi tellendirir: "İgid əsgər, möhkəm dayan!". Başqa qeyd yoxdu. Hansı məktəbin şagirdlərinin payıdı bilinmir. "Xalqın adından göndərilib..." - düşünürəm. Bu kəlmələri xalqın Azərbaycan əsgərindən iltiması bilirəm. Xalq əsgərinə güvənir, inanır ki, igid əsgərlərimiz düşməndən qisas almağa - torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Səbailli məktəblilərin əsgərlərdən istəyi - igid əsgər, möhkəm dayan - "İgid əsgər, möhkəm dayan!" mahnısıyla cavablandırılır. Bunu əsgərlərin şagirdlərə rəmzi-bədii cavabı bilirəm...

Əsgər Mirhəsən Abdullayev xalq şairi Məmməd Arazın "Ayağa dur, Azərbaycan!" şeirini söyləyir. Şeirin yüksək bədii dəyəri öz yerində, bədii intonasiyası, əsgərin şeirin məzmununu əsl hərbçi cəsarətiylə, əsl hərbçi qətiyyətiylə çatdırması məni məndən alıb Cıdır düzünə aparır, qarlı dağlar aşıram, daşbuzları, buz-daşları addamac bilib yaxın vaxtlarda Azərbaycan əsgərinin keçəcəyi yolların ağına düşürəm. Qar altda qalan izləri nişan verir bu şeir, bu şeirin bu ürəklə səslənməsi. Şair sözünün-səsinin əsgər sözüylə belə qoşalaşmasını, belə vəhdətini ordu-ictimaiyyət münasibətlərinə mənəvi güvənc bilirəm. Atası hərbi qulluqçu olan 9-10 yaşlı bir uşağın da bu şeiri misra-misra deməsi çəkir diqqətimi. Uşaq necə sevinir! - bayrama görə sevinir, bu ilki bayramda əsgərlərin əhatəsində olmasına sevinir, zamanında bu gözəlim şeiri əzbərlədiyinə, yaddaşına hopdurduğuna sevinir, bu şeirin belə möhtəşəmliklə dinləməsinə sevinir. Uşağı bayraq kimi başım üstə qaldırıram.



Buna da sevinir, mənim sevindiyim qədər sevinir...

Bayram tonqalı alışır. Novruzun atributlarını tonqal ətrafında görmək də könül xoşluğudu. Min illərdi davam edən Kosa - Keçəl macərasına əsgərlər ümidlə baxır. Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin solistlərinin yaratdığı bu sevilən obrazların oxumaları da, plastik hərəkətləri də səmimi təbəssümlə izlənilir. Keçəlin ənənəvi deyimləri yeni mətləblə tamamlanır: Gələn il sizdən Novruz payı almayacam. Sizə Şuşada pay verəcəm, Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Qubadlıda, Cəbrayılda, Zəngilanda pay verəcəm...

Ürəklər bu ovqata darlıq edir - o qədər də uzaqda olmayan səngərlərdə də yaşanılır bu ovqat. Tədbir başlamamışdan əvvəl qonaqlar, hərbi hissənin komandanlığı səngərlərdə olmuşdu, əsgərlərlə könül söhbəti zabitlərə də, əsgərlərə də, qonaqlara da qədərsiz könül xoşluğu vermişdi. O könül xoşluğunun davamı hərbi hissənin sıra meydanında yaşanılır.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin solistlərinin, digər müğənnilərin ifasında səslənən mahnılar əsgərlərə xoş anlar yaşadır. "Yallı" hamını sıra meydanında qalanan tonqalın ətrafına çəkir...

Qonaqlar hərbi hissənin rəhbərliyinin təqdimatıyla hərbi xidmətdə fərqlənən bir qrup əsgərə qiymətli hədiyyə təqdim edir. Hərbi xidmətdə fərqlənən bir qrup əsgər məzuniyyətə buraxılır. Onları ailələrinə qonaqlar çatdıracaq. Bayramda məzuniyyətə getmək də, Bakıdan əsgərlərlə bayramlaşmağa gəlmiş qonaqlarla getmək də onların yaddaşından heç zaman silinməyəcək. Bu sevinc neçə-neçə ailədə yaşanılacaq. Bayram ovqatının səyyarəsi olacaq bu sevinc. Bu sevincin işığı neçə-neçə mənzilin işığına qarışacaq; başlanğıcını bayram tonqalından götürən bu sevinc ona görə bənzərsiz sevinc olacaq!

Əsgərlərin baxışlarını bürüyən, kirpik-kirpik çırpınan, sevincin rəngində Böyük Qələbənin rəngini görürəm. Məmməd Arazın sözünün kölgəsində

> Sənə sarı daş atana
> Bu əsgərlər daş atacaq,
> Azərbaycan!
> Məmləkətə Qələbənin
> sevincini yaşadacaq,
> Azərbaycan! -

pıçıldayıram. Xırdaca-xırdaca əsən yaz mehi duyğularımı o qədər məhrəmliklə, o qədər səmimiyyətlə ehtizaza gətirir ki!..

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**leytenant**
**Orxan HÜSEYNLİ,**
**leytenant**
**Samir HÜSEYNOV,**
**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Azərbaycan xalq eposlarında milli qəhrəmanlıq nümunələri ("Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları əsasında).

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirmək tövsiyə olunur.*

**Suallar:**
**1. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir.**
**2. Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır.**

*"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir*

Erkən orta əsrlərdə (VI-XI əsrlər) Azərbaycanda baş verən ictimai-siyasi hadisələr öz bədii əksini şifahi və yazılı ədəbiyyatda tapmışdır. Həmin dövrdə şəhərlərdə və oturaq əhali arasında daha çox sehrli nağıllar və dini rəvayətlər yayıldığı halda, maldarlıqla məşğul olan əhali arasında aşıq yaradıcılığı inkişaf etmişdi. Köçərilər arasında ozanların böyük nüfuzu var idi. Onlar el-el, oymaq-oymaq gəzərək xalq qəhrəmanlarının adına dastanlar qoşur və onları təbliğ edirdilər. Ozanlar eyni zamanda xalqın məsləhətçisi, bilicisi hesab olunurdular. Ən məşhur ozanları xalq hörmətlə "dədə" adlandırırdı.

Qədim oğuz türklərinin məişətini, etik-estetik düşüncələrini əks etdirən qəhrəmanlıq eposu bu günümüzə şifahi və yazılı şəkildə gəlib çatmışdır. Azərbaycan qəhrəmanlıq eposunun böyük abidələrindən olan, Azərbaycan ədəbiyyatı tarixində şifahi xalq yaradıcılığının ana dilində qələmə alınmış ilk ən böyük ədəbi abidəsi "Kitabi-Dədə Qorqud"dur. Bu gün elmə məlum olan "Kitabi-Dədə Qorqud" əlyazmalarının Drezden, Vatikan və Berlin kitabxanalarında saxlanılan nüsxələri məlumdur. Həmin əlyazmalarda oğuz bəylərinin bahadırlıq və cəngavərlik rəşadətlərini düzüb qoşan və milli yaddaşa verən Dədə Qorqudun peyğəmbərimiz Həzrəti Məhəmmədlə (s.a.v.) bir dövrdə yaşadığı göstərilir.

"Kitabi-Dədə Qorqud" dastanında türk etnik qrupuna daxil olan oğuzların qəbilə və tayfa münasibətləri dövrünün hadisələri, oğuz tayfalarının dövlətçilik və idarəçilik ənənələri, Vətən, torpaq uğrundakı vuruşları, sivil mədəniyyətə doğru tarixi inkişafı əks etdirilir.

Dastanda təsvir olunan hadisələr xanlar xanı Bayandır xanın başçılıq etdiyi, iyirmi dörd sancağı (el, vilayət) birləşdirən Oğuz dövlətində cərəyan edir. Vahid tayfa dövləti olan Oğuz birliyində yaranmış daxili çarpışmalardan, tayfalararası ziddiyyətlərdən yaxın ərazilərdəki düşmən tayfalar istifadə etməyə çalışırdılar. Mərkəzi hakimiyyətə tabe olan sancaqların vahid dövlətçilik ənənələri yox idi. Bununla belə, Oğuz dövlətçiliyinin özünəməxsus idarəçilik qaydalarını, dövlətçilik modelini öyrənmək bu günümüz üçün də çox böyük əhəmiyyətə malikdir.

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanlarının hələlik XV-XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. "Oğuz tayfaları dilindən Dədəm Qorqud kitabı" adlanan Drezden nüsxəsi bir müqəddimə və 12 boydan, Vatikan nüsxəsi isə eyni müqəddimə və 6 boydan ibarətdir. Bu isə onu göstərir ki, hər iki nüsxə daha qədim bir nüsxədən köçürülmüşdür. "Kitabi-Dədə Qorqud"un bir sıra boyları 1815-ci ildə alman dilində, 1894-1904-cü illərdə rus dilində, 1916-cı ildə tam şəkildə Türkiyədə, 1939-cu ildə Bakıda, 1952-ci ildə İtaliyada, 1962-ci ildə isə Moskvada çap edilmişdir. Sonralar "Kitabi-Dədə Qorqud" ingilis, alman və fars dillərinə tərcümə edilmiş və İngiltərədə, ABŞ-da, İsveçrədə və İranda çapdan çıxmışdır.

Qafqazda olmuş alim və səyyahlar "Kitabi-Dədə Qorqud"dan dəfələrlə bəhs etmişlər. Adam Oleari adlı səyyah 1638-ci ildə Dərbənddə azərbaycanlılardan Dədə Qorqud hekayətlərini eşitdiyini, Qazan xanın arvadı Burla xatunun, eləcə də Dədə Qorqudun özünün burada qəbirləri olduğunu göstərmişdir. Övliya Çələbi isə "Səyahətnamə"sində Dərbənddə Dədə Qorqudun qəbri olduğunu və şirvanlıların bu qəbrə böyük ehtiram və etiqad bəslədiklərini qeyd etmişdir.

Azərbaycan xalq bədii təfəkkürünün abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarında xalq dilinin incəliklərindən, atalar sözlərindən, məsəllərindən məharətlə istifadə olunmuşdur. "Kitabi-Dədə Qorqud" Azərbaycan dilinin tarixini öyrənmək baxımından zəngin mənbədir.

"Kitabi-Dədə Qorqud" motivləri əsasında yazıçı Anar kino-dastan yazmış, 1975-ci ildə "Azərbaycanfilm" kinostudiyasında eyni adlı ikiseriyalı bədii film çəkilmişdir.

"Kitabi-Dədə Qorqud" dastanı XI-XII əsrlərdə və daha əvvəllər Azərbaycanda baş vermiş hadisələrlə səsləşir. Dastandakı hadisələrin əksəriyyəti Dəmirqapı Dərbənd, Bərdə, Göyçə gölü, Gəncə, Dərəşam, Əlincə, Qaradağ, Qaraçuq dağı və s. yerlərdə cərəyan edir. "Kitabi-Dədə Qorqud"da Dədə Qorqud bu dastanların yaradıcısı, həm də iştirakçısı kimi təqdim edilir. Bayat elindən çıxmış bu bilicinin oğuzun müşkül məsələlərini həll edərək gələcəkdən xəbər verdiyi göstərilir. Azərbaycanda Dədə Qorqudun bütün əşyalara ad verməsi barədə rəvayət mövcuddur.

"Kitabi-Dədə Qorqud" boylarında da Dədə Qorqud şücaət göstərən igidlərə ad qoyur, çətin zamanlarda xalqın köməyinə gəlir, müdrik məsləhətləri ilə onlara yol göstərir.

"Kitabi-Dədə Qorqud" boyları müxtəlif hadisələrdən və ayrı-ayrı oğuz igidlərinin qəhrəmanlığından bəhs etsə də, onlar bir-biri ilə bağlı olub vahid dastan təsiri bağışlayır. Dastanlarda oğuzun yaşlı (Qazan xan, Dirsə xan, Qazılıq Qoca, Bəkil, Baybecan, Aruz, Qaragünə) və gənc (Beyrək, Uruz, Basat, Yeynək, Qarabudaq, Əmran, Səgrək, Buğac) nəslə mənsub qəhrəmanlarından söhbət açılır. Qəhrəmanlıq ruhu abidənin əsas qayəsini təşkil edir. Dastanlarda igidlər yalnız öz şücaəti ilə ad-san qazanırlar. Qəhrəmanlıq göstərməyən cavanlara ad verilmir.

"Kitabi-Dədə Qorqud"un qəhrəmanlıq ruhu Vətən məhəbbəti ilə ayrılmaz vəhdətdədir. Oğuz bəyləri doğma yurdlarını qorumaq naminə hər cür fədakarlığa hazır igidlərdir. Onların arasında məqsəd birliyi, ümumi mənafe uğrunda düşmənə qarşı birgə mübarizə ruhu hakimdir. Dastanlarda eyni zamanda xəyanət, həsəd, qorxaqlıq, fərarilik və s. kimi mənfi sifətlər kəskin tənqid olunur.

Eposda oğuz bəyləri ilə mübarizə aparan düşmən qəbilələri də təsvir edilir. Dastanlarda oğuzların düşmənə hücumları yalnız təcavüzkarlardan intiqam almaq məqsədi daşıyır. Qazan xan vuruş meydanında "qaçanı qovmur", "aman diləyəni öldürmür".

"Kitabi-Dədə Qorqud" yarandığı dövrün adət-ənənələri, köçəri həyat tərzi və s. haqqında tarixi-etnoqrafik məlumatlarla zəngindir. Burada etik davranış normaları, ailə-məişət məsələləri öz əksini tapmışdır: oğul ata sözünü iki eləmir, ağsaqqal qocaya, ağbirçək qarıya hörmətsizlik bağışlanılmaz günah sayılır, yoldaşını döyüş meydanında qoyub qaçanlar amansız cəzalandırılır və s.

"Kitabi-Dədə Qorqud" eposunun qəhrəmanlıq ruhu qadın obrazlarında və onların davranışlarında da aydın görünür. Dastanda təsvir edilən mərd, əyilməz qadınlardan Qazan xanın qadını Burla xatun igidlikdə ərindən geri qalmır, döyüş meydanında hünər göstərir. Başqa qadın obrazları da (Banuçiçək, Selcan xatun və b.) namuslu, tədbirli, təmkinli, ağıllı və dözümlüdürlər.

*Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır*

Azərbaycan xalqının "Kitabi-Dədə Qorqud"dan sonra yaranan ikinci böyük qəhrəmanlıq eposu "Koroğlu"dur. Dastanın qəhrəmanı Koroğlu tarixi şəxsiyyətdir. XVI əsrin sonu - XVII əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, Səfəvilər dövləti və Osmanlı imperiyası arasında müharibələr Azərbaycan xalqının maddi rifahının ağırlaşmasına və xalq kütlələrinin narazılıqlarına səbəb olurdu. XVI əsrin sonunda Şeyx Cəlalın başçılığı ilə Anadoluda vüsət alan kəndli hərəkatı XVII əsrin əvvəllərində Azərbaycana da yayıldı.

Müxtəlif tayfalar içərisindən çıxmış Cəlali dəstə başçılarından ən məşhuru Azərbaycan türkü Koroğlu idi. Salmas yaxınlığındakı Xaraba qala Koroğlu tərəfindən tikilmişdir. Dastanda Naxçıvan ərazisi, Salmas, Xoy Koroğlunun ən çox fəaliyyət göstərdiyi yerlərdəndir. Dastanın bir çox variantlarında Koroğlunun iqamətgahı olan Çənlibel qalasının Naxçıvanda və Makuda yerləşdiyi göstərilir. Koroğlu öz qəhrəmanlıqları ilə xalq kütlələrinin hədsiz məhəbbətini qazanmışdı. Koroğlunun dastana daxil olunmuş və şəxsi yaradıcılığına aid edilən qoşmalarından başqa, dastanın heç bir variantında əksini tapmayan şeirləri də tapılmışdır.

Tədqiqatçı alimlər tərəfindən Azərbaycan və Gürcüstan fondlarında saxlanılan naməlum müəlliflərin əlyazmalarında Koroğlunun ayrı-ayrı şeir və qoşmaları aşkar edilmişdir. Koroğlunun silahdaşlarından ayrı-ayrı dəstə başçıları - Dəli Həsən, Giziroğlu Mustafa bəy, Kosa Səfər, Tanrıtanımaz, Abaza paşa, habelə dastandakı mənfi personajların bir çoxu tarixdə yaşamış şəxslər hesab olunur. Bütün bunlar qəhrəman cəsarətini, xalq müdrikliyini, ədaləti özündə birləşdirən, nəğməkar, aşıq sənətinin bilicisi Koroğlunun real tarixi şəxsiyyət olduğunu deməyə əsas verir.

Azərbaycanda "Koroğlu" dastanının ilk nəşri 1913-cü ilə təsadüf edir. Bundan başqa dastanın 1927, 1929, 1941, 1949, 1956, 1975, 1983 və 1997-ci il nəşrləri də mövcuddur.

Azərbaycanın torpaqlarına olduğu kimi, mədəniyyətinə də iddialı olan ermənilər hətta "Koroğlu"nu da özününküləşdirmək kimi cəfəng xülyalarda olmuşlar. Tarixi bir faktdır ki, ötən əsrin 20-30-cu illərində Azərbaycanda fəaliyyət göstərən Tədqiq və Tətəbbə Cəmiyyəti xətti ilə aparılan ekspedisiyalar əsasında 1936-cı ildə eposun 20 qoldan ibarət yeni, daha mükəmməl nəşri çapa hazırlanmışdı. 1936-cı ilin dekabrında müstəntiq E.Qriqoryan tərəfindən həmin əlyazma Ermənistana, "mətndə ermənilərdən oğurlanmış qolları üzə çıxarmaq üçün" rəyə göndərilmişdi. Sonralar həmin qolların bir çoxu ermənilərin düzəlişləri ilə erməni mətbuatında "azərbaycanca və ermənicə çalıb-çağıran erməni aşıqlarından yazıya alınmış nümunələr" kimi nəşr edilmişdir. 1941-ci ildə isə İrəvanda "Koroğlu"nun erməni variantı üzə çıxıb. Bütün bunlar bizə bir daha erməni xislətinin iç üzünü açıb göstərir.

Xalqımızın qəhrəmanlıq ənənələrini əks etdirən xalq ədəbiyyatı nümunələri əsrlərdən keçərək bu gün bizə çatmış və milli-mədəni sərvətimizə çevrilmişdir. Ümummilli lider Heydər Əliyev bütün sahələrə olduğu kimi, tariximizə, mədəniyyətimizə də diqqət və qayğı göstərmişdir. Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən, latın qrafikası ilə ilk növbədə kütləvi nəşr ediləcək Azərbaycan xalq ədəbiyyatı nümunələri arasında "Kitabi-Dədə Qorqud" eposunun 3 cilddə, "Koroğlu" dastanının 2 cilddə çapı nəzərdə tutulmuşdur.

Torpaqlarımızın 20 faizinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edildiyi bir zamanda Azərbaycan Ordusunda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, ümumiyyətlə gənclərin vətənpərvərlik tərbiyəsində "Kitabi-Dədə Qorqud" eposu və "Koroğlu" dastanı xalqımızın qəhrəmanlıq salnaməsinin dəyərli əsərləri kimi mühüm əhəmiyyətə malikdir.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

Ordu və cəmiyyət

# "Çağırır Vətən"

*Şahin Musaoğlunun mahnılarından biri belə adlanır. Ön xətdə bu adla keçiriləcək tədbirə tələsirik. Bu məkanın gözəlliyindən nə könül doyur, nə də göz əl çəkir. Gül gülə söykənib, çiçək çiçəyə, həzin-həzin əsən meh ləçək-ləçək gəzişir. Bu ilahi sığal ləçəkləri təravətləndirir, ağaclar çiçək gözləriylə göy üzünə göz gəzdirir. Belə ecazkar gözəlliyi qoruyanların əlini sıxacağımız tədbir ərəfəsində döyüş növbətçiliyindən qayıdanlardan eşidəcəyimiz kəlmələrdən isinəcəyimiz anlara tələsirik.*



Şeirlər səslənəcək, üzü səngərlərə sarı tələsən yellərə qarışan mahnılar pərvazlanacaq. Bu şeirləri, mahnıları Şuşanın, Cıdır düzünün, İsa bulağının, Topxana meşəsinin, ... həsrətinə söz təsəllisi, musiqi təsəllisi biləcəyik. "Xalqı tarixi şəxsiyyətləri tanıdır" kəlamı düşür yadıma. Xalqımızı sözüylə tanıdan Nizami Gəncəvini, Məhəmməd Füzulini, İmadəddin Nəsimini, Səməd Vurğunu, ... musiqisiylə tanıdan Üzeyir Hacıbəyovu, Qara Qarayevi, Fikrət Əmirovu, ... səsiylə tanıdan Cabbar Qaryağdıoğlunu, Şəkili Ələsgəri, Xan Şuşinskini, Rəşid Behbudovu, ... xatırlayıram. Bugünkü tədbiri onların yaşarı ömürlərindən düşən nur bilirəm. Könlümüzün əsgərlərimizin əhatəsində o nurdan telləncəyi məqama tələsirik...

Bu düşüncələr Azərbaycanımız üçündü - Vətən üçündü, torpaq üçündü, Vətəni qoruyanlar üçündü, şəhidlərimizin ruhunu intizardan qurtarmaq üçündü. Xalq artisti Qədir Rüstəmova son nəfəsində "Gözümüz aydın, ay Qədir, Ağdam işğaldan azad edildi!" - deyiblər. Ünlü xanəndənin gözlərində bir əlçim təbəssüm, bir əlçim şükranlıq görünüb. Bu düşüncələr son nəfəsini belə şükranlıqla çəkənlər üçündü...

Müdafiə Nazirliyi ilə Yazıçılar Birliyinin birgə imzaladığı memoranduma əsasən, Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi ilə Birliyin vətənpərvərlik komissiyasının birgə tədbiri olacaq: "Çağırır Vətən". "Çağırır Vətən!" deyiləcək, Vətənin adından deyiləcək, qələbə üçün deyiləcək, yaxın vaxtlarda işğalın gözlərinə kül ələyəcək əsgərlərimiz deyəcək, əsgərləşənlər deyəcək. Mətləbi Vətən olan, torpaq olan, qələbəyə təşnəlik ruhu olan şeirlər səslənəcək, o təşnəliyin musiqi yozumları dinləniləcək. O şeirlər, o musiqilər bu günümüzdən sabahlarımıza aparacaq yolun işığına dönəcək. "Bu işığın başlanğıcı Azərbaycan əsgərinin Vətənə sevgisidi, Vətən sevgisidi", - düşünürəm. Böyük Füzulinin bir misrasını xatırlayıram: "Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz". Ruhdan süzülüb gələn işıqlı sözlərin, musiqinin işığında Şuşanın Qoşa Qala qapısını, Cıdır düzündə çiçəklərin titrəyişini görəcəyik, İsa bulağının pıçıltısını eşidəcəyik.

Və qədərsiz sevgilərlə, gözdolusu ehiramlarla əsgərlərimizə baxacağıq...

Polkovnik-leytenant Namiq Cavadov bu gəlişə, bu görüşə görə qonaqlara minnətdarlığını bildirir: - İnanıram ki, bu tədbir əsgərlərimizin mənəvi-psixoloji hazırlığında əhəmiyyətli rol oynayacaq...

Polkovnik-leytenant Zöhrab İmamquliyev qonaqları - şair-bəstəkar Şahin Musaoğlunu, şair Zakir Ağdamlını, şair Şükür Şuşalını hərbi hissənin şəxsi heyətinə təqdim edir.

Yazıçılar Birliyinin vətənpərvərlik komissiyasının sədri şair-bəstəkar Şahin Musaoğlu hərbi hissənin şəxsi heyətinə Yazıçılar Birliyinin sədri xalq yazıçısı Anarın bayram təbriklərini çatdırır, ümidvar olduğunu bildirir ki, ordumuz torpaqlarımızı işğaldan azad edəcək:

- Görüşünüzə bu inamla gəlmişik. Müdafiə Nazirliyi ilə Yazıçılar Birliyinin imzaladığı birgə memorandum istər miqyasına, istərsə də məzmununa görə daha da genişlənəcək, şairlərimiz, yazıçılarımız sizin Vətən sevginizin kükrəyişi üçün könlünüzə yatacaq əsərlər yazacaqlar...

"Çağırır Vətən"in mahiyyətində Böyük Qələbəni gördüyümüz tədbirdə əsgərlərimizin baxışlarında əsgərlərimizə xitabən yazılan, yaşadılan

Sancıl Şuşada torpağa, bayraq,
daşa, bayraq!
Əllərdə, könüllərdə və dillərdə
qərar tut,
Olsun bu Vətən torpağı
başdan-başa bayraq! -

misralarının işığını görürük.

Şahin Musaoğlunun, Zakir Ağdamlının, Şükür Şuşalının şeirləri, Şahin Musaoğlunun mahnıları bu işığın cazibəsində dinlənilir.

Əsgərlər yaşı yaşlarından böyük olan "İgid əsgər, möhkəm dayan!" mahnısını atalarından, babalarından eşitdikləri söhbətlərin kövrəkliyini ana-ana dinləyirlər. Dinləyirəm. Dinləyə-dinləyə əsgərlərimizə baxıram. Bu, adi baxış deyil, bu, heyranlıqdı. Baxıram, duyuram, görürəm: "İgid əsgərlərin möhkəm dayanıb, Vətən!" - pıçıldayıram. Mənə elə gəlir ki, bu gözəlim kəlmələr iştirakçıların sayı qədərincə səslənir. Zamanında bu mahnını xalq şairi Məmməd Araz da dinləyib. İgid əsgərlərə güvənib - duyğulanıb, "İgid əsgər, möhkəm dayan!" mahnısının bədii mətninin də, musiqisinin də dəyərini duyub - duyğulanıb. Onun bu mahnının təsiriylə Azərbaycan əsgərinə yazdığı

Körpələrin yuxusunu
qoru, qardaş!
"Vətən ölməz!" duyğusunu
qoru, qardaş!
"Hünər ölməz!" nidasını
qoru, qardaş! -

misralarını xatırlayıram. Bu tədbir həm də bu misraları yazdıran mətləbin, mahiyyətin tədbiridi...

"İgid əsgər, möhkəm dayan!" mahnısını tədbirin uvertürası bilirəm...

Şahin Musaoğlunun birinci Qarabağ müharibəsində səngərlərdə əsgərlərimizlə söhbətləşəndə, "İgid əsgər"iylə, "birinci batalyon"uyla, "Cənab leytenant"ıyla, "Çağırır Vətən"iylə "Şahinlər"iylə, ... əsgərlərimizin ruh qardaşı - ruhən səngərdaşı olduğunu mən də sezmişdim. Həkim Şahin Musaoğlu indi Yazıçılar Birliyinin vətənpərvərlik komissiyasının sədridi. Birliyin xəttilə keçirilən vətənpərvərlik tədbirləri ictimaiyyətin yaddaşındadı. Müharibədə, müharibə şəraitində, xalq şairi Səməd Vurğunun təbirincə desək, müsəlləh əsgər olan şair Şahin Musaoğlunun, bəstəkar Şahin Musaoğlunun gərəkli yaradıcılığı həmişə duyumluların düşüncələrinə sarılıb. İndi də belədi. Bu mahnılar ictimaiyyətin güvənci olan əsgərlərimizin ruhu üçündü, qətiyyəti, dəyanəti, dövlətə, dövlətçiliyə sədaqəti üçündü, "Bu əsgərlər səngərləri yaxın vaxtlarda dövlət



sərhədlərimizə köçürəcək" inamı üçündü. Bu gəliş, bu görüş sözün - şeirlərin, musiqinin - mahnıların Azərbaycan əsgərinə ehtiramıdı, sevgisidi. Hər nəğmə "Vətən!" deyir. Vətən deyirik...

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin Mahnı və Rəqs ansamblının solistlərinin ifa etdiyi mahnıların sözləri də, musiqisi də Şahin Musaoğlunundu.

"Çağırır Vətən" səslənir. Vətənin çağırışı kimi dinlənilir. Mahnı hamını Vətənin adından Qarabağa çağırır - Qələbəyə çağırır. "Çağırır Vətən" dağları tərpətmək, daşları dikəltmək qüdrətində dinlənilir. "Çağırır Vətən" mənə 1992-ci ilin payızında Qubadlının İkinci Ağalı kəndində yaşadıqlarımın eynisini yaşadır. "Yiyəsiz evlərin görkəmi, doqqazların cəftəsiz qapıları, sahiblərinin yolunu gözləyən Bozdarların məlul baxışları, uşaqların axtaran atanın ürək göynədən duruşu, ... çağırır bizi!" - deyir "Çağırır Vətən". Deyir və zirvəsini duman bürümüş Qırxqız dağının, Kirs dağının o üzünə çağırır hamımızı. Əsgərlərimizin görüşünə gəlmiş şair Şükür Şuşalının o dağlardan üzülməyən baxışlarında çırpınan qəhər sezilən qəhərdi. "Çağırır Vətən"i bu qəhərə, belə qəhərlərə təsəlli bilirəm, təsəllimizə ümid, ümidimizə inam...

"Əsgər, Vətən əmanəti"nin bədii intonasiyası təsdiqləyir ki, şeir şəhidlərin ruhuna ithaf olunub - əsgərə xitabən deyilənlər şəhidlərimizin ricası, iltiması kimi səslənir, "Vətəni qoruyun!" - deyir, "savaşınız zəfər olsun!" - deyir. Əsgərlərin yumruqları düyünlənib.

Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi istiqamətində görülən tədbirlərdən biri kimi memorandumun da mahiyyəti Azərbaycan əsgərinin döyüş ruhunu, əzmini, qətiyyətini qələbəyə kökləməkdi. "Vətən əmanəti" milli-xəlqi ruhumuzdan süzülən bəstə təsirindədi, elə bu təsirlə də ifa edilir. "Vətən əmanəti"ni dinləyənlərin ürəyindən keçənləri duymaq, hiss etmək çətin deyil - əsgərlər də, zabitlər də, qonaqlar da bu əmanətin əbədiyyən qorunacağına and içir. "And içirik" şair sözü, bəstəkar istəyi kimi səslənir, əsgərlər üçün səslənir, əsgərlərin adından səslənir; "And içirik" mahnısını tədbirin nəqaratı bilirəm. Əsgərlər Vətənə sədaqət andı - Hərbi and içib. Bu and onların hansı amalla xidmət etdiyini müəyyənləşdirir. "And içirik!" mahnısının ədəbi mətni - şeir bu amaldan rişələnib. Mahnının musiqisi məzmununu duyğusallıqla tamamlayır. Gözəl ifa ideyanı əsgərlərin duyğularına, düşüncələrinə incəliklə hopdurur. Hərbi hissənin sıra meydanında əllər bayrağa dönür. Hamı "And içirik!" deyir. Hamı "mənfur düşməndən qisas almağa" - torpaqlarımızı işğaldan azad etməyə and içir. Mənə elə gəlir ki, şəhidlərimizin ruhu da bu sıradadı. Memorandum, memoranduma əsasən Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi ilə Yazıçılar Birliyinin vətənpərvərlik komissiyasının birgə tədbiri - "Çağırır Vətən" bu baxımdan dəyərləndirilməlidi...

Yaz ovqatı yaz havasına qarışıb. Bu vəhdət sözlə - şeirlərlə, musiqiylə - mahnılarla qoşa yaşanılır. Tədbir şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksələcəyi inamıyla izlənilir. Bu inam müqəddəsliyə - Vətənə ad olan inamdı. Ona görə belə dönməzdi, belə çılğındı...

Zakir Ağdamlının və Şükür Şuşalının oxuduğu şeirlər də tədbirin mahiyyətiylə səsləşir, əsgərlərin duyğularının bədii mehinə dönür...

"Çağırır Vətən" tədbirinin işığı hamımızı Böyük Qələbəyə səsləyir, Vətən! Ruhumuzun səsiylə çağırır. Müdafiə Nazirliyi ilə Yazıçılar Birliyinin birgə memorandumunu bu çağırışın dönməzlik sənədi bilirəm...

Vətənin çağırışına hamımız hazırıq. Hamımız Böyük Qələbəyə aparan yolun yolçusuyuq.



**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Hərbi şəhərcikdə bayram tədbiri



*Müdafiə Nazirliyi və Səbail rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə hərbi şəhərciyin yenidənqurma və təmir işlərindən sonra açılış mərasimi keçirildi.*

Müdafiə Nazirliyi Mənzil İstismar İdarəsinin rəisi polkovnik Fikrət Mirzəyev çıxış edərək Azərbaycanın dövlət siyasətində ordu quruculuğunun əsas istiqamətlərindən biri olduğunu qeyd etdi. İdarə rəisi bildirdi ki, son illər hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb. "Bakı şəhərində və müxtəlif bölgələrdə müasir hərbi şəhərciklər tikilərək istifadəyə verilir. Müdafiə Nazirliyinin rəhbərliyi də daim sosial sahəyə diqqət yetirir", - deyə polkovnik F.Mirzəyev qeyd etdi.

Səbail rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov da çıxış etdi və hərbi qulluqçuları, onların ailə üzvlərini müqəddəs Novruz bayramı münasibətilə təbrik etdi. "Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna böyük diqqət və qayğısının nəticəsidir ki, bu gün ölkəmizin hərbi qüdrəti daha da artıb. Yüksək döyüş hazırlığına malik olan Azərbaycan Ordusu bu gün üzərinə düşən bütün döyüş tapşırıqlarını yerinə yetirməyə və ölkəmizin ərazi bütövlüyünü təmin etməyə qadirdir."

Sonra hərbi şəhərciyin ərazisində ağaclar əkilərək bir sıra abadlıq işləri görüldü. Qeyd etmək lazımdır ki, ərazidə bəzi köhnə tikililər tamamilə sökülüb, yeni hasar çəkilib, asfalt örtüyü təzələnib, müasir işıqlandırma dirəkləri və plafonlar quraşdırılıb. Mənzillərə isti su xətti çəkilib və digər əhəmiyyətli işlər görülüb. Həmçinin şəhərcikdə yaşayan sakinlərin istirahəti üçün binanın həyətində mini futbol meydançası, şahmat meydançası, oturacaqlar və idman alətləri quraşdırılıb.



Hərbi şəhərciyin həyətində Novruz bayramı münasibətilə təşkil olunan şənlikdə Baharın atributları olan Kosa və Keçəl tərəfindən tonqal qalandı. Tədbir iştirakçıları bayram münasibətilə bəzədilmiş süfrəyə qonaq oldular. Mərasim rəngarəng musiqi proqramı ilə başa çatdı.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# Bahar ovqatı

*Cəbhə bölgəsinə yaxın ərazidə yerləşən hospitalda da Novruz bayramı və "Açıq qapı" günü tədbirləri təntənəli surətdə keçirildi. Bu münasibətlə hospitalın həyətində masalar bayram nemətləri ilə bəzədildi və bayram tonqalı çatıldı. Hərbi qulluqçuların sağlamlığının keşiyində dayanan tibb işçiləri, hərbi qulluqçular, əsgər valideynləri və ictimaiyyət nümayəndələri buraya toplaşmışdılar. Üz-gözlərdə bahar təravəti vardı.*

Mayor Hüseyn Qaçayev tədbir iştirakçılarını Novruz bayramı münasibəti ilə təbrik edərək son illər ölkəmizdə həyata keçirilən uğurlu ordu quruculuğu siyasətindən danışdı. Ali Baş Komandan İlham Əliyev tərəfindən məqsədyönlü tədbirlərin davam etdirildiyini vurğuladı. "Hərbi tibb sahəsinin inkişaf etdirilməsinə də xüsusi diqqət yetirilir. Hərbi qulluqçuların sağlamlığının qorunması üçün müasir tələblərə cavab verən tibb mərkəzləri yeni tibbi avadanlıqlarla, əyani vəsaitlərlə təmin olunub. Əsas məqsədimiz hərbi qulluqçulara göstərilən tibbi xidmətin səviyyəsini yüksəltməkdir."

Bakı şəhər sakinləri Azər Məmmədov və Ceyhun Novruzov əsgərlərin sağlamlıqlarına göstərdikləri yüksək diqqət və qayğıya görə ölkə başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Sonra Novruzun rəmzi olan bayram tonqalı alovlandırıldı.



Gəncə şəhərindən gəlmiş incəsənət ustalarının hazırladıqları bayram konserti böyük rəğbətlə qarşılandı.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# "Ordumuz xalqımızın mənəvi dəstəyini daim hiss edir"

Azərbaycan Ordusunun təminatında heç bir problemin olmaması ilə bağlı Müdafiə Nazirliyinin yaydığı xəbər ehtiyatda olan hərbçi kimi məni də çox sevindirir. Ali Baş Komandan və dövlətimiz tərəfindən Azərbaycan Ordusuna göstərilən diqqət və qayğı bunu deməyə əsas verir.

Bu fikirləri ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov AZƏRTAC-a açıqlamasında bildirib.

Y.Aydəmirov qeyd edib ki, son illərdə ordunun silahlanmasına daxil edilən ən müasir hərbi texnika, silah və digər döyüş vasitələri Azərbaycan Ordusunun gücünü dəfələrlə artırıb və düşmən üzərində üstünlüyü təmin edib. Müasir və hər cür kommunikasiya sistemləri ilə təchiz edilmiş hərbi şəhərciklərin tikilməsi, əsaslı surətdə təmiri əsgərlərin, eləcə də zabit heyəti və onların ailə üzvlərinin sosial-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində atılan addımlardandır. Dəfələrlə hərbi hissələrdə olarkən əldə edilən bu nailiyyətlərin şahidi olmuşam. Xalqımız da bunu görür və qiymətləndirir.

"Bir məqama da xüsusi toxunmaq istərdim. Əvvəlki illərlə müqayisədə indi ordu ictimaiyyət üçün kifayət qədər açıqdır. Müxtəlif qurumların, ictimai təşkilatların nümayəndələri hərbi hissələrə səfərlər edir, şəxsi heyətlə görüşlər keçirirlər. Bunlar hamısı çox müsbət haldır. Amma bəzi hallarda bu səfərlər özünüreklam xarakteri daşıyır. İndi ordumuz keçən əsrin 90-cı illərinin əvvəllərində olan pərakəndə silahlı dəstələrdən həm kəmiyyət, həm də keyfiyyət baxımından xeyli fərqlənir. Bu səbəbdən də hərbi hissələrə səfərlər edərkən ərzaq və məişət məhsullarının toplanaraq əsgərlərə çatdırılmasına heç bir ehtiyac yoxdur. Tez-tez əsgər və zabitlərin yanında olan bir general kimi ictimaiyyətimizi tam əmin edirəm ki, hazırda ordumuz xalqımızın mənəvi dəstəyini daim hiss edən və hərtərəfli təmin olunmuş əsgərlərimizin heç bir şeyə ehtiyacı yoxdur", - deyə Y.Aydəmirov xüsusi vurğulayıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***27 mart 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 84 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə və İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım və Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Baş Qərvənd, Cəvahirli, Abdinli, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə Nazirliyi Ermənistan mətbuatının Azərbaycana məxsus PUA-nın ələ keçirilməsinə dair məlumatına münasibət bildirib

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan mətbuatında guya təmas xəttində Azərbaycana məxsus pilotsuz uçuş aparatının ələ keçirilməsi barədə məlumatın və fotonun yayılmasına münasibət bildirib.

AZƏRTAC-ın sorğusuna cavab olaraq nazirlikdən məlumat verilib ki, yayılan fotoda təqdim edilən kvadrokopter Çin istehsalı olan və məişət texnikası mağazalarından rahatlıqla alına biləcək qurğudur. Bu qurğu yəqin ki, Novruz bayramı şənliklərindən birinin çəkilişində, yaxud da uşaqların oyunu zamanı ermənilərin ələ keçib.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 125
Nüsxə 3525